**İsmət Bora Binatlı**

*(Türkiyə)*

Günəş üfüqdən yüksəlir,
Yox olur məndə suizan?
Ürəyimdə bayram olur
Göyə yüksələrkən əzan.

Anarlar Hilal həbəşi
O çilə çəkən qardaşı.
Sönər cəhənnəm atəşi,
Cənnətə çevrilir cahan.

Küt beyin, xıltlı ürək,
Od püskürür kürək-kürək,
Nəfs olur günaha dirək,
Donur damarlarımda qan.

Haqqa dönük çıxsa üzlər,
Haqqa qarşı çıxar sözlər.
Dua etdikcə öksüzlər,
Yaxın gəlir ona xəzan?

Təkbirlə tək Birə qovuş
Yalnız onadır yalvarış.
Bahara dönər qara qış
Rəhminə qovuşan bu can.

Cənnəti -əlada Kövsər,-
Rəbbim, bizə də bir az ver.
Bu qul cəmalını istər,
Onu məndən etmə pünhan.